LAYİHƏ ÜZRƏ MƏLUMAT BÜLLETENİ

Funded by the European Union

EU4Green Recovery East (EU4GRE) proqramı



İcra müddəti: 01.01.2025 - 31.12.2028

ŞT ölkələri:
Azərbaycan, Ermənistan, Gürcüstan, Moldova, Ukrayna

Aİ-nin maliyyə yardımı: € 21 300 000

Ümumi büdcə: € 21 530 119

İcraçı təşkilat(lar):
The Environment Agency Austria (UBA), leader of the consortium, Expertise France, with International Office for Water (OiEau), Organisation for Economic Co-

Sosial media hesablarına keçidlər:
facebook.com/p/EU4Environment-100064075302365/

Internet səhifəsi: eu4greenrecoveryeast.eu/

Layihənin təsviri:
“EU4Green Recovery East” proqramı Şərq Tərəfdaşlığı ölkələrinin daha yaşıl, davamlı və rəqabətədavamlı iqtisadiyyata keçidini dəstəkləyir.
Avropa İttifaqı tərəfindən 21,3 milyon avro məbləğində maliyyələşdirilən bu proqram (2025–2028-ci illər) “European Green Deal” və “Global Gateway” strategiyaları ilə uyğunlaşdırılmışdır. Layihə yeni iş yerlərinin yaradılmasına, əhalinin sağlamlığının qorunmasına və resursların səmərəli idarə olunmasına xidmət edən ekoloji siyasət innovasiyalarını təşviq edir. Su ehtiyatlarının idarə edilməsi və yaşıl iqtisadiyyat sahəsində Aİ-nin onillik təcrübəsinə əsaslanan “EU4Green Recovery East” aşağıdakı istiqamətlər üzrə fəaliyyət göstərəcək:
• Dairəvi iqtisadiyyatın və resursların səmərəliliyinin təşviqi. Müəssisələrə yeni iş yerlərinin yaradılması, xərclərin azaldılması və idxaldan asılılığın minimuma endirilməsi üçün dairəvi iqtisadiyyat modellərinin tətbiq edilməsində dəstək.
• Su ehtiyatlarının mühafizəsi və çirklənmənin azaldılması. İctimai sağlamlığın və ekosistemin qorunması məqsədilə suyun keyfiyyətinin monitorinqi və idarəetmə sistemlərinin təkmilləşdirilməsi.
• Aİ-nin ətraf mühitə dair standartlarına uyğunlaşma. Hökumətlərin Aİ-nin ətraf mühit üzrə siyasətlərinə (Aİ qanunvericiliyinin 27-ci fəsli) uyğunlaşmasının dəstəklənməsi.

Gözlənilən nəticələr:
1. Kiçik və orta sahibkarlıq (KOB-lar) subyektləri, eləcə də yerli tənzimləyici qurumlar dairəvi iqtisadiyyata keçid və daxili material istehlakının azaldılması istiqamətində zəruri potensiala malik olacaq;
2. Namizəd ölkələrdə Aİ standartlarına uyğun, təbiətyönümlü və iqlimə uyğunlaşdırılmış çay hövzələrinin idarə edilməsi planları tam tətbiq ediləcək, digər Şərq Tərəfdaşlığı ölkələrində isə Aİ-nin su sahəsində qanunvericiliyi və təcrübələri ilə uyğunlaşma sahəsində irəliləyiş əldə olunacaq;
3. “European Green Deal” təşəbbüsü və 27-ci fəsil üzrə institusional biliklər artırılacaq, namizəd ölkələr üzvlük prosesində ətraf mühit sahəsində müvafiq dəstəklə təmin ediləcək;
4. Aİ miqyasında ətraf mühit sahəsində əməkdaşlıq platformalarına inteqrasiya dərinləşdiriləcək və ətraf mühit sahəsində məlumatlara ictimai çıxış imkanı yaradılacaq;
5. BMT-nin Avropa İqtisadi Komissiyası çərçivəsində ətraf mühit sahəsində beynəlxalq öhdəliklərə riayət səviyyəsi yüksəldiləcək, “Global Gateway” strategiyası üçün prioritet olan məsələlər üzrə transsərhəd əməkdaşlıq gücləndiriləcək.